**İlahə DADAŞOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**dadashova.ilaha@mail.ru**

# ƏZİZƏ CƏFƏRZADƏ NƏSRİNƏ NƏZƏR: TARİXƏ, SƏNƏTƏ, SƏNƏTKARLARIN HƏYATINA DƏYƏR KONTEKSTİNDƏ

Xalq yazıçısı, tərcüməçi, f.e.d., professor, yaradıcılığa 1937-ci ildə "Əzrayıl" adlı hekayə ilə gələn Əzizə Cəfərzadə (1921-2003) "Aləmdə səsim var mənim" (1973-1978) adlı ilk tarixi romanı ilə məşhurlaşmışdır. 100 illik yubileyi qeyd edilən, çoxşaxəli yaradıcılığı ilə sevilən sənətkarın S.Ə.Şirvaninin həyatından "Aləmdə səsim var mənim", Nişat Şirvaninin yaradıcılığından bəhs edən "Vətənə qayıt" (1977), A.Səhhət, M.Ə.Sabir, Ə.Nasehin həyatından bəhs edən "Yad et məni" əsərləri Şirvan trilogiyası adı ilə çap olunmuşdur. "Bakı – 1501" romanı dövlətçiliyimizin yaranmasında böyük xidmətləri olan Ş.İ.Xətainin şəxsiyyətinə sovet dönəmində diqqət baxımından xüsusilə əhəmiyyətlidir. Azərbaycan tarixi romanının inkişafında mühüm xidmətləri olan müəllif "Gülüstandan öncə" (1996), "Eldən elə" (1992), "Bir səsin faciəsi" (1995), "Zərrintac-Tahirə" (1996), "İşığa doğru" (1998), "Rübabə Sultanım" (2001), "Xəzərin göz yaşları" (2003) romanlarında tariximizin az müraciət olunan hadisələrini təsvir edib, məşhurlarla yanaşı, diqqətdən kənarda qalan şəxsiyyətlərin həyatına yer vermişdir. Şirvan hakimi Mustafa xanın rus müstəmləkəçilərinə qarşı mübarizəsindən bəhs edən "Gülüstandan öncə" əsərini redaktə edən f.e.d., professor Vaqif Sultanlı Ə.Cəfərzadənin Kürəkçay müqaviləsindən tarixçilərdən əvvəl məlumat verdiyini qeyd edir. Müəllif "Rübabə Sultanım" əsərində də xalqımızın başına gətirilən müsibətlərdən bəhs edib,

rusların bu torpaqları əldən heç vaxt buraxmayacaqlarını vurğulayıb, hadisənin səbəbinə diqqət yönəldib: "Kürəkçaydan başladı bəlamız, bircə-bircə yedi xanlıqları".

Onun məşhur səyyah Zeynalabdin Şirvaninin həyatından bəhs edən "Eldən-elə" (1992) romanı, kişi libasında musiqi fəaliyyəti ilə məşğul olan Mirzə Güllərin həyatından "Bir səsin faciəsi" (1995), Məhəmməd Xudabəndənin həyat yoldaşı Məhdi Ülyanın həyatından, türk səltənətinin farslaşdırılmasına etiraz kimi yazdığı, 37 türk tayfasından bəhs etdiyi, 37-ci il repressiyalarına diqqət yönəltdiyi "Bəla" (2001) povesti və digər əsərləri də diqqət çəkir. Yaradıcılığının son mərhələsində avtobioqrafik səciyyə daşıyan "Rübabə Sultanım" (2001) romanı ailəsinin həyatına müraciəti ilə fərqlənir, bioqrafik detallar, uşaqlığının əksini tapdığı roman XIX-XX əsrlər Azərbaycan tarixinin ictimai-siyasi, mənəvi-əxlaqi həyatının mürəkkəb mənzərəsinin yüksək sənətkarlıqla canlandırılması baxımından da əhəmiyyət kəsb edir. O, ictimai-siyasi hadisələri bir nəslin tarixi, həyatı fonunda təqdim edib tarix, ədəbiyyat qarşısında borcunu yerinə yetirmişdir. Həyatının son illərində yazdığı "Xəzərin göz yaşları" əsəri, tarixi qaynaqlar əsasında yazdığı əsərlərindən fərqli olaraq, müşahidələr əsasında yazılıb, 1938-ci ildə Azərbaycanda yaşayan güney əsilli insanların − Stalin rejimi tərəfindən İrana məcburi deportasiya olunan cənubi azərbaycanlıların həsrətini əks etdirir. Səhhəti yol vermədiyindən əllə yazmadığı, diktə etdiyi, 2003-cü ildə tamamlanan, vəfatından sonra oğlu Turan İbrahim tərəfindən yazıya köçürülən son romanı "Eşq sultanı" 2005-ci ildə f.e.d., professor V.Sultanlının redaktəsi və "Yazıçının son romanı" adlı ön sözü ilə nəşr olunmuşdur. Roman M.Füzulinin ömrü, sənət yolu, uğurları, sevinci və kədərinin ifadə olunduğu həyat hekayəsidir. Ə.Cəfərzadə şairin oğlu Fəzlin ona layiq olmadığını, oğlunun ondan ayrılmasının Füzuliyə vurulan ağır zərbə olduğunu bildirməklə yanaşı, həyatının çoxlarına bəlli olmayan məqamlarına, yaradı-

cılığının nüvəsinə diqqət yönəldir, şeirindəki elmiliyin ona əbədiyaşarlıq gətirdiyini söyləyir. Fəzl isə yaradıcılıqda elmi mahiyyətə önəm vermədiyindən uğur qazana bilmir. Onların şəxsi münasibətlərində də soyuqluğun səbəbini şeirləri ilə özünü artıq kamil sayan Fəzlüllah – Fəzlin yalnız atasına görə şöhrətlənə bilməməsini düşünməsi ilə əlaqələndirir. Füzulinin farsca divanındakı bir qəsidəsinin məzmunundan isə məlum olur ki, Fəzlin müstəqil həyata qədəm qoymasını özü məsləhət görmüşdür. O özünü ağaca, Fəzli meyvəyə bənzədir, söyləyir ki, meyvə yetişdikdə ağacdan ayrılmasa, hər ikisinə ziyan yetişər – meyvə çürüyər, ağac nadanlar tərəfindən daşlanar. Ondan ayrılmaq istəməsə də, bunun zəruri olduğunu bildirir. Fəzlin suallarını cavablandıran, onu həyata hazırlayan Füzuli artıq Fəzlin onunla həmdil olmağını, ona təzim etməyini münasib bilmir: “Nə qədər ki mənimləsən, nə adın olar, nə nişanın”.

Ə.Cəfərzadə əsərdə oğlunun Füzulidən ayrılmasını qanuni hesab etdiyini, lakin bu hicrana qatlaşmağın onun üçün ağır olduğunu vurğulayır. Bu, qəsidədəki fikirlə eyniyyət təşkil etsə də, qəsidənin məzmunu Fəzlin ondan ayrılma səbəbinin “Eşq sultanı” əsərində fərqli verildiyini göstərir. Kitabın “Son sözüm” adlı hissəsində yazıçı hər kəsin qəlbində Füzuli abidəsi olduğunu, əsəri belə adlandırmasını onun həyatın, eşqin şairi olması ilə əsaslandırır, hər kəsə saf məhəbbət arzulayır. Müraciətindən bu qənaətə gəlirik ki, o da, sələfləri kimi, bəşərin səadətini pak sevgidə görmüş, onu insanlara bütün qəlbi ilə arzulamışdır. Ə.Cəfərzadənin romanlarda yalnız iki nəfəri − anası Rübabəni və söz mülkünün sultanı Füzulini sultan adlandırması, fikrimizcə, əbəs deyil. Ana insanı dünyaya gətirirsə, əsl sənətkar da yaratdıqları vasitəsilə onu yaşadır, ən ağır anında bir ifadəsi ilə yenidən həyata bağlayır, qəlbin sultanı olmaq statusu qazanır. Bu hakimiyyəti oxucu qüdrətli sənətkara sevərək verir və bu onun qəlbini sıxmır, azadlığını çərçivələmir, ona səadət bəxş edir.

**Ilaha Dadashova**

# A LOOK AT AZIZA JAFARZADEH'S PROSE: IN THE CONTEXT OF HISTORY, ART AND THE VALUE OF WRITER'S LIVES

***Summary***

In the thesis enlights the prose of people's writer Aziza Jafarzade. Issues are analyzed in the context of history, art, the lives of poets and prominent personalities. Known as a writer, pedagogue and scientist, Aziza khanum wrote about her family life along with historical and literary personalities. In "The Sultan of Love" he focuses on the biography of M. Fuzuli's life, the moments we do not know. The writer is  a guardian of both our history and literature.